Misir MƏRDANOV
Ədalət TAHİRZADƏ

# 1920-Cİ İLƏDƏK ALİ MƏKTƏBLƏRDƏ OXUMUŞ AZƏRBAYCANLILAR

(Ensiklopedik soraq kitabı)

V CİLD

Misir MƏRDANOV
Ədalət TAHİRZADƏ

# 1920-Cİ İLƏDƏK ALİ MƏKTƏBLƏRDƏ OXUMUŞ AZƏRBAYCANLILAR

(Ensiklopedik soraq kitabı)

Azf 318084

V CİLD

M

Azərbaycan milli
kitabxanası

Təhsil

BAKI – 2021

edəcək şəxslərə ehtiyac vardı. Məhz bu zaman "Difai" təşkilatı erməni hücumları qarşısında millətimizin qalxanına çevrildi. Təsadüfi deyil ki, Qarabağda bu milli müdafiə təşkilatının başında duranlardan birincisi həkim Mehmandarov idi.



Qızı Məhbubə xanım

Araşdırıcı jurnalist *Vasif Quluyev* yazır:

*"...Hələ 1905-1906-cı illərdəki erməni-müsəlman davasında və 1918-1920-ci illərdəki daşnak hücumu zamanı o,*[1] *Qarabağın qeyrətli oğulları* ***Cəfər bəy Vəzirov*** *və* ***Əbdülkərim bəy Mehmandarov'la*** *birlikdə camaatı səfərbərliyə alaraq ermənilərə qarşı qaldırmışva neçə-neçə kəndi daşnak qırğınından xilas etmişdir".*

"Kaspi" qəzetinin 1906-cı il sentyabr ayındakı bir yazısında Şuşadan həkim Mehmandarovun 15-31 avqust 1905-ci ildəki erməni-müsəlman davasından zərər çəkənlər üçün göndərilmiş 1927 manatlıq yardımın hesabatı dərc edilib. Buradan aydın olur ki, qayğıkeş həkim soydaşlarına nəinki dava zamanı, eləcə də davadan sonra yardım təşkil edib.

"Kaspi" qəzeti 1906-cı ilin avqust ayında Kərim bəyin "Xeyirxah insanlara müraciət"ini dərc edib. Burada *Xasməhəmməd Şirinbəyov*'un ayağının kəsilməsindən söz gedir. Həkim camaata bildirir ki, ona süni ayaq almaq üçün 300-350 manat pul gərəkdir və xahiş edir ki, bu pulu toplayın və ürəyimdən ağır daşı götürün. Pulları Şuşaya Mehmandarovun adına göndərin.

Qarabağda erməni vəhşəti yenicə səngimişdi ki, bu dəfə də 1907-ci ildə çəyirtkə tüğyanı başladı. Yerli əhalinin əkin-biçinini tamamilə məhv edən çəyirtkə sürüsü gerçək bir bəlaya çevrilmişdi. Ən pisi bu idi ki, onunla mübarizəni xalqın özü aparmalı olmuşdu. "Kaspi" qəzetinin 26 aprel 1907-ci il tarixli sayında *[İbrahim bəy] Davatdarov* və *[Əbdülkərim bəy] Mehmandarov'*un Ağdamdan göndərdikləri çəyirtkə ilə bağlı məktubu dərc edilib. Onlar çörək və ağ neft almaq, işçi tutmaq üçün dövlətdən pul buraxılmasını xahiş edirdilər.

[1] Məhəmməd ağa Müctəhid...





Ağır zəhmətinə baxmayaraq həkimlərin maddi durumu yetərincə zəif idi, Mehmandarovun ailəsində 8 uşaq böyüyürdü və yeganə yaşayış mənbəyi onun maaşı idi. 1907-ci ildə o, 30 illik qüsursuz xidmətinə görə illik maaşına bərabər olan – 600 manatlıq tam təqaüdə təqdim edilib. Bundan başqa, ona yemək, mənzil haqqı və əlavə maaş da verilib.

Hippokrat andına daim sadiq qalan Mehmandarov işinə böyük məsuliyyətlə yanaşırdı. 1910-cu ildə ona müalicəsindən ötrü məzuniyyət verilərkən işləri, dərmanları və alətləri başqa həkimə təhvil verdiyi ərəfədə Quzey Qafqazda vəba salqını əlamətləri ortaya çıxıb. Salqının Zaqafqaziyada, o sıradan Gəncə vilayətində də yaranmaq ehtimalı olduğuna görə o, məzuniyyətdən imtina edərək Şuşada qalmışdı.

Qarabağın ictimai-mədəni işlərində də fəallıq göstərən Əbdülkərim bəy Şuşa "Nəşri-Maarif" Cəmiyyətinin başçılarından biri idi. *Həmidə xanım Cavanşir*'in bildirdiyinə görə, onun və dramaturq *Nəcəf bəy Vəzirov*'un təşəbbüsü ilə yerli ziyalıların, başlıca olaraq oxuyan gənclərin gücü ilə həvəskar tamaşalar təşkil edilib. Şuşada vaxtaşırı Azərbaycan mədəniyyətinin *Üzeyir bəy Hacıbəyli, Əbdürrəhim bəy Haqverdiyev, Hüseynqulu Sarabski, Cəlil Məmmədquluzadə, Nəcəf bəy Vəzirov* və b. kimi görkəmli nümayəndələri toplaşıb. Xeyriyyə